# Prezidentin xüsusi nümayəndəsi Tatarıstanda işgüzar səfərdədir

**Azərbaycan Respublikası Prezidentinin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi Vahid Hacıyev Rusiyanın Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovla görüşüb.**

AZƏRTAC xəbər verir ki, Tatarıstan Respublikası Hökumət Evinin ofisində baş tutan görüşdə xüsusi nümayəndə ilə yanaşı, onun müavini Səbuhi Mehdizadə, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Növrəs Cəfərov da iştirak ediblər. Rüstəm Minnixanov çıxışında hazırkı işgüzar əlaqələrin davam etdirilməsinin Rusiya-Azərbaycan münasibətlərinin gələcək inkişafı çərçivəsində vacibliyini vurğulayıb. Tatarıstanın Rəisi Azərbaycana işgüzar səfərini xatırlayaraq Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında bərpa-quruculuq işlərinin sürəti barədə olan müsbət təəssüratlarını qeyd edib. Sonra birgə layihələrin müzakirəsi olub, digər aktual mövzulara da toxunulub.



Prezidentin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsinin Tatarıstana işgüzar səfəri Rusiyanın Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun dəvəti əsasında baş tutub. Üç gün davam edəcək səfər zamanı Kazan və İnnopolis şəhərlərində bir sıra dövlət və özəl qurumlarda görüşlərin keçirilməsi nəzərdə tutulub.

Azərbaycan.- 2024.- 10 sentyabr (№ 196).- S.2.